**UOT 316**

# MİQRASİYA SAHƏSİNDƏ SOSİAL İŞ

**Aynur BAĞIRLI***

Məqalə redaksiyaya daxil olmuşdur: 10 avqust 2023; çapa qəbul edilmişdir: 3 sentyabr 2023; online-da çap edilmişdir: 27 sentyabr 2023.

Received: 10th of August, 2023; accepted: 3th of September, 2023; published online: 27th of September, 2023.

**Açar sözlər:** *miqrasiya, miqrasiya siyasəti, miqrant, sosial iş, miqrasiya qanunvericiliyi*

## Giriş

Miqrasiya prosesi insan aktivliyinin və həyat tərzinin, daha yaxşı həyat və rifah axtarmaq prosesinin tərkib hissəsidir. Miqrasiya ümumilikdə təbii prosesdir. Qədim dövrlərdə miqrasiya köçəri həyat tərzi olaraq müəyyən məqsədlərə nail olmağı ehtiva etsə belə, yenə də istər iqtisadi, istər qeyri-iqtisadi müəyyən səbəbləri özü ilə daşıyırdı.

Miqrasiya prosesi təhsil, müharibələr, əmək prosesi, daha yaxşı rifah və ya bu kimi digər hallar əsasında baş verir. Miqrasiya prosesinin idarə olunmasında ən vacib şərt isə qanunlar əsasında idarə edilməsidir. Belə ki, bu sahədə bir çox hüquqi aktlar mövcuddur. Əsasən, hər bir ölkənin bu sahədə öz qanunları mövcuddur.

Eyni zamanda miqrasiya prosesi elə bir prosesdir ki, burada minlərlə insan müxtəlif sosial, iqtisadi, mədəni, siyasi problemlərlə qarşılaşır və bu problemlər müxtəlif səbəblərdən meydana çıxır. Hüquqi və sosial məsələlərlə əlaqəli mütəxəssislər bu problemlərin hər birinə ayrı-ayrılıqda diqqət yetirir. Beləliklə, müasir həll yolları düşünülür.

## Miqrasiya prosesinin meydana gəlməsinə təsir edən amillər

İnsanlar şüurlu şəkildə ətraf mühiti dərk etdikdən bəri və yeni fürsətlər qazanmaq hissi ilə bir yerdən digər yerə daim hərəkət etmişlər. İlkin dövrlərdə insanlar geniş otlaq sahələrinə çıxış, heyvanları ovlamaq üçün daha qənaətbəxş yerlər, əkinçilik üçün münbit torpaqlar tapmaq üçün bir yerdən başqa yerə köç etməyə başlamışlar. Hər bir dövr bir-birini əvəz etdikcə yeni istəklər və maraqlar meydana gəlmişdir. Şəhərlər salınmağa başlamış əlçatan və rifah şəraitində yaşamaq istəyi xüsusilə insanları bu ərazilərə köçməyə sövq etmişdir. Bir sözlə, bu hərəkət prosesinə hər bir tarixi dövrdə fərqli şəkildə yanaşılmışdır. Fərqli yanaşmaların təsirlərinin hər dövrdə yeni səbəbləri məhz insana olan dəyər, eyni zamanda qanunların humanist dəyərlərə söykənərək, tətbiqi günü-gündən köç etmə prosesinin hüquqi və qanuni şəkildə olmasına, məsuliyyətlərin artmasına səbəb olur. Bu prosesin qanuni və hüquqi əsaslarla həyata keçirilməsi özündə müsbət təsirlər qazandırdığı kimi, özü ilə bərabər bir sıra yeni problemlər gətirmişdir.

Ümumdünya 2020-ci il hesabatına, əsasən, 2019-cu ildə 272 milyon miqrant bir yerdən başqa yerə köç etmişdir [4, s. 21]. Bu prosesin meydana gəlməsi üçün bir sıra səbəblər mövcuddur.

Miqrasiya prosesinin sosial iş baxımından təsirlənməsini öyrənmək üçün prosesə təsir edən amilləri araşdırmaq vacibdir. Miqrasiya prosesinin meydana gəlməsinə təsir edən amillər aşağıdakılardır:

* *dosent əvəzi, Azərbaycan Turizm və Menectment Univerisiteti*
*e-mail*: a.bagirli@atmu.edu.az

1. Sosial, mədəni, hüquqi, siyasi, qeyri-demokratik amillər, daha aydın desək- məcburi amillər.

2. Rifah baxımdan daha keyfiyyətli həyat yaşamaq – şəxsi seçim əsasında.

Miqrasiya prosesinin həyata keçmə forması isə aşağıdakı növlərə bölünür:

1. Daxili miqrasiya: ölkə daxilində (şəhərlər kəndlər arasında, əksinə, yaxud müxtəlif formalarda).

2. Xarici miqrasiya: bir ölkədən digərinə köç edilməsi.

Köç prosesinin 2 cür xarakteri mövcuddur:

1. İqtisadi əsaslı;

2. Qeyri-iqtisadi əsaslı [1, s. 14].

Miqrasiya səbəbləri:

- Könüllü köç;
- Məcburi köç;
- Müvəqqəti köç;
- Daimi köç;
- Daxili köç;
- Xarici köç;

İstər iqtisadi olsun, istər-qeyri iqtisadi əsaslı olsun, hər bir köç prosesin digər səbəbi kimi sosial amillər rol oynayır. Sosial amillərlə yanaşı, hüquqi amillər də miqrasiya siyasətinin əsasını təşkil edir.

Miqrasiya prosesinin idarə edilməsində sosial işçilər üçün ən əsas istiqamətlənmə hüquqi müddəalara əsaslanmaq xüsusi əhəmiyyət daşıyır. Miqrantların statusunun qorunmasında ən vacib siyasi sənəd "Qaçqınların statusu haqqında Konvensiya"dır. Konvensiya Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi tərəfindən 1948-ci il dekabr ayının 10-da qəbul edilmişdir. Konvensiyanın əsası İnsan hüquqları haqqında bəyannamə əsasında verilmişdir. Konvensiya 7 fəsildən ibarətdir.

**Azərbaycanda miqrasiya prosesi**

Azərbaycanda miqrasiya prosesinin idarə olunmasında subyekt rolunda olanlar:

❖ "Azərbaycan Respublikasının Dövlət Miqrasiya İdarəetmə Siyasəti Konsepsiyasının təsdiq edilməsi haqqında Nazirlər Kabinetinin Qərarı"

❖ "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti"

❖ "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi"

❖ "Azərbaycan Respublikasının Konstitusiyası"

Azərbaycan Respublikası ərazisində olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin ölkədə qalma müddəti müəyyən dövrü əhatə edir. Bu, əsasən, viza əsasında, və ya viza ilə daxil olmayan şəxslər üçün müvəqqəti qalma müddəti isə beynəlxalq müqavilələr ilə nəzərdə tutulmuş hallar istisna olmaqla, 90 gündən artıq ola bilməz.

Bəzi hallarda şəxsin ölkədə qeyd edilən zamandan müvəqqəti yaşama müddəti azaldıla bilər:

❖ Şəxsin təcili şəkildə müalicəyə yönləndirilməsi;

❖ Şəxsin yaxın qohumlarının vəfatı və ya xəstələnməsi;

❖ Tranzit keçid zamanı şəxsin məcburi şəkildə ölkəmizdə dayanması;

❖ Şəxsin yaxın qohumlarından hər hansı birinin məcburi qalma müddəti uzandıqda [7].

Dünyada hazırda 200 milyon miqrant mövcuddur [8]. Ən böyük miqrasiya koridoru Meksika-ABŞ, Qazaxıstan-Rusiya və sairdir.

**Avropa Birliyi ölkələrində miqrasiya**

Hal-hazırda miqrantların ən çox üz tutduğu ölkələr Avropa Birliyi ölkələridir. Xüsusən, 2009-cu ildən etribarən xüsusilə Almaniyaya miqrant axınları çoxalmışdır. Avropa birliyinə üz tutan miqrant axınına münasibətləri sistemləşdirmək məqsədi ilə 2005-ci il dekabr ayında Köçə Qlobal Yanaşma mövzusunda şura iclası təşkil edilmiş və aşağıdakı hədələr təyin edilmişdir:

- Qeyri-qanuni miqrasiya prosesinə müdaxilə;
- Hüquqi miqrasiyadan faydalanma;
- İnkişaf etdirici və keçid siyasəti;

Almaniyada miqrantların qəbulunda xüsusən əməkçi miqrantlara üstünlük verilir. Digər ölkələrdə miqrasiya axının qarşısını almaq məqsədi ilə bir sıra qaydalar qəbul olsa da, Almaniyada parlament əmək bazarında uğurlu olan şəxsləri ölkəyə cəlb etməyə xüsusi canfəşanlıq göstərir [8].

Avropa ölkələri sırasında ən çox diqqət mərkəzində olan ölkələrdən biri İsveçdir. Bu ölkədə miqrasiya siyasətində konkret qaydalar var. Belə ki, qanunsuz miqrasiya axını üçün ciddi tədbirlər görülüb. Miqrantların keçidi çox ciddi yoxlanılır. Qəbul prosesi dəstək istiqamətindən daha çox ölkənin inkişafına istiqamətlidir [ 11] .

Böyük Britaniyada miqrasiya siyasətinin əsas 3 subyekti mövcuddur. Bunlar aşağıdakılardır:

- İngilis miqrasiya siyasəti;
- Birləşmiş Krallıq vizası;
- Miqrasiya departamenti [12].

Burada qiymətləndirmə əsasında miqrantların qəbulu 2020-ci ildən bu yana davam etməkdədir [10].

2008-ci ildə Avropa Köç Paktı qəbul edilmişdir. Paktda 5 təməl məsələ əksini tapmışdır:

- Qanuni köçü təşkil etmək;
- Tərəf dövlətlər hər bir ehtiyaca diqqət etməli, problemləri həll etmək istiqamətində olmalı;
- Keçidlərdə təhlükəsizliyin təmini;
- Sərhəd yoxlamalarında nizamlama etmək;
- Repatriasiyanı sağlamlaşdırmaq.

**Miqrantların yaşadığı problemlər**

Miqrantlar ölkələrindən qaçmaqla problemlərdən qaçmırlar. Yeni problemləri eyni anda qazanırlar**.** Mühacirət prosesi bir sıra amillərlə əlaqəli olduğu kimi, bir sıra amillərdə də eyni zamanda miqrantlar problemlər yaşadır. Bunlar psixoloji, sosial, hüquqi olmaqla bölünür. Psixoloji:

- Qəzəb;
- Depressiya;
- Güvənsizlik;
- Yalnızlıq;
- Yuxusuzluq;
- Diqqət dağınıqlığı;
- Psixo-somatik narahatlıqlar;
- Çarəsizlik;
- Nifrət;
- Dəyərsizlik hissi;
- Təkrarlanan ağlama halı.

İqtisadi:
- Sığınma yeri;
- Qidalanma;
- Zəruri ehtiyaclara əlçatanlıq.

Sosial problemlər:
- Ailə üzvlərinin itirilməsi səbəbindən emosional bağlanma ehtiyacının təmin olmaması;
- Cəmiyyətdə sosial statusun itirilməsi;
- Sosial dəstəyin olmaması;
- İrq, din, dil fərqi;
- Xidmətlərə əlçatanlığın olmaması [2, s. 3-9].

**Sosial işçilər və miqrasiya**

Haqqında danışılan problemlər yeni mühitə gəlmiş və kifayət qədər həmin mühitdə yaşamaq üçün imkanları olmayan, yaxud həmin mühitə bələd olmayan şəxslərin həyatında ciddi çətinliklər törədir. Bu çətinliklər şəxsin özünün aradan qaldırmaq gücünə malik olmadığı üçün ətrafdan dəstək almaq üçün zəmin rolu oynayır. İnsanların haqlarının qorunması, onların çətin həyat şəraitindən çıxarılması və dövlət-fərd münasibətlərində körpü rolu oynamaqda sosial işçilər dəstək olurlar. Bu baxımdan miqrantların sosial problemlərinin həllində sosial işçilərin cəlb edilməsi və fəaliyyəti müstəsnadır.

Miqrantların sosial problemlərinin həllində onlara dəstək olan hüquqi şəxslərə ehtiyacları var. Bu prosesin əsas iştirakçı subyektlərindən biri sosial işçilərdir. Sosial işçilər aşağıdakı fəaliyyətləri həyata keçirilər:

Mikro səviyyədə:
- Fərdi yanaşma təşkil edilir;
- Gücləndirmə həyata keçirilir;

Mezo səviyyədə:
- Dil kurslarına yönəlmə;
- Peşə kurslarına yönəldilmə;
- Miqrant ailələrin inteqrasiyası,
- Qrup işləri;

Makro səviyyədə:
- Tədqiqatlar aparmaq;
- Həll yolları çıxarmaq. [3, s. 3-9].

Sosial işçilər bu sahədə çalışarkən dövlət siyasətində tətbiq edilən, qəbul edilmiş proqramlar və hüquqi əsasları diqqətə almalıdır. İlk öncə burada dövlət məsuliyyətləri qeyd edilməlidir. Burada 3 prinsip əsasında fəaliyyət mövcuddur:

1. Könüllü olaraq repatriasiya- bu proses xüsusən rifah üçün köçən şəxslər üçün çox ağır və qərar baxımından alınması, razılaşdırılması çətin prosesdir;
2. Yerləşmə prosesi – burada miqrantların şəxsi seçimləri baxımdan öz ayaqları üzərində durmalarına dəstək göstərilməsi;
3. Başqa ölkələrə – yerləşmə üçüncü ölkəyə yerləşdirilməsi.

Bu sahədə sosial işçilər əsasən gücləndirmə fəaliyyəti icra edir. Onlara problemləri idarə etmə və həll etmə qabiliyyətləri mənimsədilir. Sosial işçilər aşağıdakı haqları xüsusi tutmalıdır:

1. Yaşamaq hüququ;
2. Qeyri-insani davranışlara qarşı qadağa;
3. Azadlıq və təhlükəsizlik;
4. Sağlamlıq;

5. Təhsil;
6. Müraciət etmə;
7. Vicdan azadlığı;
8. Ayrı-seçkiliyə qadağa [6, s. 35-36].

**Nəticə**

Miqrasiya prosesi fərdlərin yer dəyişməsi olaraq qəbul edilməkdədir. Miqrasiya qlobal prosesdir. Miqrasiyanın özlüyündə səbəbləri, tipləri, növləri vardır. Miqrasiyanın baş verməsi müxtəlif amilləri özündə daşıyır. Miqrasiya zamanı yarana biləcək mənfi halların və yaranmış olan insan fəaliyyətinə, ləyaqət və fərdiyyətinə münasibətdə qeyri-insani davranışların qarşısının alınması məqsədi ilə məqalədə miqrasiya prosesi ilə bağlı qəbul edilmiş hüquqi aktlar, subyekt rolunda çıxış edən hüquqi şəxslər haqqında qeydlər alınmışdır.

Miqrantlarla sosial işdə köç edənlərin sosial, psixoloji, iqtisadi problemləri məlum haldır. Bu hal zamanı subyekt qismində çıxış edərək miqrantların problemlərinin həllinə dəstək üçün fəaliyyətdə olan müəssisə və qurumların daxilində sosial işçilər cəlb olunur. Miqrasiya prosesinin özünəməxsusluq və səviyyəsinə uyğun mikro, mezo, makro səviyyələrdə sosial işçilər dəstəkçi qismində çıxış edirlər. Sosial işçilər adı çəkilən səviyyələr çərçivəsində miqrantların ehtiyaclarını qiymətləndirir, uyğun proses və xidmətlərə cəlb edilər. Bu prosesdə kompleks yanaşma tətbiq edilir. Yanaşmada sosial işçilərdən başqa müxtəlif peşə sahələri üzrə sosial, psixoloji, tibbi, hüquqi, pedaqoji yardımlar göstərilməkdədir.

## ƏDƏBİYYAT


1. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşaması (https://www.migration.gov.az/az/page/73)
2. Nəsibov E. Miqrasiyanın əsasları. Bakı: "Elm və təhsil" nəşriyyatı, 2004, 14 s: (http://anl.az/el/Kitab/2015/Azf-282050.pdf)
3. Demirbilek M. Göçmen ve sığınmacılarla sosial hizmet, Mültecilerin yaşadıkları sorunlar. Ankara Üniversitesi. Sağlık bilimleri fakültesi. Sosial Hizmet bölümü, 2009, s. 3-9. (https://acikders.ankara.edu.tr/pluginfile.php/97169/mod_resource/content/1/12.%20Hafta%20M%C3%BCltecilerin%20Sorunlar%C4%B1%20SHB209%20G%C3%96%C3%87MEN%20VE%20SI%C4%9EINMACILARLA%20SOSYAL%20H%C4%B0ZMET.pdf )
4. Sosyal Hizmet Mesleği ve Mültecilik (https://multeci.net/2010/08/sosyal-hizmet/)
5. Uluslararası Sosyal Hizmet Araştırmaları, Sosyal Hizmet Uzmanlarının Mültecilere Yönelik Görev ve Sorumlulukları, s. 6. (https://dergipark.org.tr/tr/download/article-file/2259935)
6. Uçan G. Sosyal hizmet uzmanı bakış açısı ile türkiye'de mültecilere ve sığınmacılara yönelik sosyal hizmet müdahelesi. Yüksek lisans tezi. (file:///C:/Users/User/Downloads/522327.pdf)
7. World migration report 2020, UN migration, International Organization for Migration. (https://publications.iom.int/books/world-migration-report-2022)
8. Manual for Human Rights Education with Young people (https://www.coe.int/az/web/compass/migration)
9. International Migrants Day 18 December: (https://www.un.org/en/observances/migrants-day)
10. Germany passes law to attract skilled migrant workers amid fierce debate: (https://www.bbc.com/news/world-europe-66003238)
11. Sweden's new migration policy: (https://www.government.se/government-policy/swedens-new-migration-policy/)
12. How has immigration changed under the UK's new 'points based' system? Published Tuesday, 27 September, 2022. (https://commonslibrary.parliament.uk/how-has-immigration-changed-under-the-uks-new-points-based-system/)

***Резюме***

***Айнур Багирли***

***Социальная работа в сфере миграции***

Как говорилось в статье о миграционном процессе, возникновение этого процесса охватывало длительные исторические периоды. Миграция – это перемещение населения из одного места в другое по внутренним или внешним причинам. Эта ситуация с перемещением населения признана глобальной проблемой современности. Таким образом, создается основа для существования комплексных подходов, и эти виды подходов имеют отношение к указанной проблеме.

Наряду со своими положительными эффектами миграция приводит к социальным проблемам. Особенно легальная миграция, в результате серьезных социальных и военных процессов, миграция несет с собой психоло- гические проблемы. Таким образом, изучение миграции как темы считается важным и особо важным. Профессиональной сферой, играющей особую роль в решении проблем мигрантов, является социальная работа, обладателями этой профессии являются социальные работники. Социальные работники уважают человеческое достоинство при работе с мигрантами. Они действуют как посредники в устранении первоначальных стрессовых факторов. Социальные работники создают условия для комплексного подхода других людей. Особое значение уделялось изучению языковых навыков и вовлечению в трудовой процесс. В статье рассматривается миграционный процесс и его историческое развитие. В то же время политическая активность проявляется в Азербайджане и странах Европы, которые входят в число основных направлений мигрантов. Кроме того, отметим, что отражены факторы и причины миграции.

В статье подчеркнута связь между социальной работой и миграцией, и к ней подошли на микро-, мезо- и макроуровнях.

Это находит отражение в социальных, психологических и эконо- мических проблемах мигрантов и в том, как их ожидают. В то же время в статье отражены права, принятые в стране и на международном уровне.


***Ключевые слова:*** *миграция, миграционная политика, социальная работа, мигрант, миграционное законодательство*


***Summary***

***Aynur Bagirli***

***Social Work in Migration***

As mentioned in the article about the migration process, the occurrence of this process covered long historical periods. Migration is a movement of a population from one place to another due to internal or external reasons. This displacement situation is recognized as a global issue in the current era. Thus, it creates the basis for the existence of complex approaches, and these types of approaches are related to the mentioned issue.

Along with its positive effects, migration leads to social problems. Especially legal migration, as a result of serious social and military processes, migration brings with it psychological problems. Thus, the study of migration as a topic is considered important and particularly important. The professional field that plays a special role in solving the problems of migrants is social work, the owners of this profession are social workers. Social workers respect human dignity when working with migrants. They act as mediators in eliminating initial stress factors. Social workers create conditions for the complex approach of other people. Special importance was given to the study of language skills and involvement in the labor process.

The article discusses the migration process and its historical development. At the same time, political activity is manifested in Azerbaijan and European countries, which are among the main destinations of migrants. In addition, let's note that the factors and causes of migration have been reflected.

In the article, the connection between social work and migration was emphasized, and it was approached at the micro, meso, and macro levels.


**Keywords:** *migration, migration policy, social work, migrants, migration legislation*

Şöbə redaktoru f.ü.f.d. Rəhimov Mütəllim Qara oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.